*Azərbaycan Milli Elmlər Akademiyası M.Füzuli adına Əlyazmalar İnstitutu,* *p-ISSN: 2410-5600*
*Əlyazmalar yanmır / Manuscripts don't burn № 2, 2025*

https://doi.org/10.59849/2410-5600.2025.2.70

UOT: 070.

**Lalə Hüseynova**
*AMEA, Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutu*
*Bakı şəhəri, İstiqlaliyyət küç., 26*
*e-mail: huseynova085@gmail.com*

# MƏHƏMMƏD ƏMİN RƏSULZADƏ VƏ MİLLİ MƏTBUAT

**Xülasə**

XX əsrin əvvəllərində yaşayıb-yaradan ziyalılarımızın əksəriyyəti həm siyasi, həm də ədəbi fəaliyyəti ilə xalqımızn mədəni sərvətlərini, mənəvi dəyərlərini qorumaq yolunda tarix yazmışdır. Azərbaycan Cümhuriyyətinin qurucusu Məhəmməd Əmin Rəsulzadə də öz ədəbi-intellektual dünyagörüşü, mədəni-siyasi bilgiləri ilə bu vəzifəni layiqincə yerinə yetirmişdir.

Məhəmməd Əmin Rəsulzadə şəxsiyyəti Azərbaycan istiqlal tarixinin şanlı səhifələrində nə qədər parlaq görünürsə, bu böyük insanın milli mətbuatımızın inkişafında göstərdiyi xidmətlər də o qədər önəmli yer tutur. M.Ə.Rəsulzadə təkcə siyasi xadim, ölkəsinin, millətinin tərəqqi yolunu göstərən, bu yolda yorulmadan addımlayan mücahid deyil, həm də ictimai-siyasi məqalələri ilə Azərbaycan cəmiyyətini doğru istiqamətə yönəldən bir ziyalı, ədib, sözün ən yaxşı mənasında jurnalist, redaktor olub. O öz siyasi fəaliyyəti dövründə həm də söz və mətbuat azadlığı uğrunda mübarizə aparıb. Daim təqiblərə məruz qalan M.Ə.Rəsulzadə Çar Rusiyası dövründə mətbuat üzərində senzuraya qarşı da ciddi etirazını bildirib. Məqalədə bu böyük tarixi şəxsiyyətin milli-demokratik mətbuatımızın inkişafında göstərdiyi xidmətlər, müxtəlif illərdə redaktoru olduğu qəzetlər və ədəbiyyatşünas-publisist kimi irəli sürdüyü ictimai siyasi fikirləri öz əksini tapmışdır.

***Açar sözlər:*** *Azərbaycan Xalq Cümhuriyyəti, Məhəmməd Əmin Rəsulzadə, milli mətbuat, istiqlaliyyət, mətbuat azadlığı, İran mətbuatı, "Şərqi-Rus", "Açıq söz", "İran-nov"*

**Giriş**

*Milli istiqlal hərəkatının qüdrətli şəxsiyyətlərindən biri olan Məhəmməd Əmin Rəsulzadə Azərbaycan Xalq Cümhuriyyətinin təməlini qoymaqla millətinə əvəzsiz xidmətlər göstərmişdir. Bu böyük siyasi xadim türk ideologiyasına xidmət edən nadir şəxsiyyətlərdəndir. Həqiqətən də xalqın ictimai-siyasi, elmi, ədəbi-mədəni dünyagörüşünün formalaşmasında milli-azadlıq hərəkatının ideoloqu, siyasi xadim Məhəmməd Əmin Rəsulzadənin (1884-1955) böyük rolu olmuşdur. O, təkcə siyasətçi deyil, həm də şair, nasir, tənqidçi, nəzəriyyəçi, redaktor, publisist, tədqiqatçı, filosof, mədəniyyətşünas kimi geniş fəaliyyət göstərmişdir.*

XX əsr Azərbaycan xalqının oyanma dövrüdür. Bu irəliləmə özünü daha çox mətbuatla göstərirdi. Tədqiqatçıların təbirincə desək, dövrün nəbz döyüntüləri mətbuatda duyulur, əks olunur. Deməli, mətbuatımızın tarixi, həm də dövrün tarixi ilə bağlıdır. Çünki mətbuat dövrün hadisələrinin yazılı salnaməsidir. Bu salnamənin şərəfli səhifələrindən biri də 1918-1920-ci illərdir. Bu dövr Azərbaycan xalqının azadlıq, müstəqillik tarixində ən şərəfli bir mərhələdir.

1918-1920-ci illərdə Azərbaycan siyasi publisistikasının ən parlaq nümunələri Məhəmməd Əmin Rəsulzadənin qələminə məxsus idi. M.Ə.Rəsulzadə təkcə siyasi xadim, mücahid deyil, həm də ictimai-siyasi məqalələri ilə Azərbaycan cəmiyyətinə xidmət edən bir ziyalı, jurnalist, redaktor olmuşdur.

Rəsulzadəyə görə, "əgər hər bir millətin mədəniyyətinin inkişafı onun ədəbiyyatının inkişafı ilə bağlıdırsa, hər bir millətin siyasi vəziyyəti də onun mətbuat azadlığı ilə bağlıdır. O millət, o məmləkət xoşbəxt və azaddır ki, onların mətbuatı azad və xoşbəxt olsun" [1, s.32].

M.Ə.Rəsulzadənin ilk mətbu yazısı 1903-cü ildə Tiflisdə çıxan "Şərqi-Rus" qəzetində dərc edilmişdir. Onun siyasi publisistikası XX əsrin əvvəllərində Azərbaycan xalqının milli azadlıq ideyaları ilə tərbiyə olunmasında böyük gücə malik idi. Bu baxımdan onun Azərbaycan Cümhuriyyətinin yaranmasının ilk günlərində yazdığı "Azərbaycan Paytaxtı" adlı tarixi-publisistik məqaləsi bu gün də öz ictimai təsirini qoruyub saxlayır. M.Ə.Rəsulzadə bu məqaləsində Azərbaycan türklərinin tarixi keçmişindən, yaşadığı ərazinin coğrafi hüdudlarından bəhs edir, vətəni, milləti sevdirməyə çağırırdı: "Mən mətbuatı çox aradım. Lakin Bakı barədə bir yazıya rast gəlmədim. Bu həvəs mənə cəsarət verdi: müxtəsər də olsa, Bakının tarixi haqqında bir kaç yarpaq qaralayalım. Şübhəsiz ki, bu sətirlərlə veriləcək məlumat Azərbaycan paytaxtının şan və heysiyyəti və şüciyyəti ilə olmayacaq. Düşündüm ki, nəqis də olsa, bir şey olsun. Biz nəqisini başlarıq, mütəşəbbüs gənclərimiz də çalışar vətən eşqi, məmləkət məhəbbəti ilə səy edər, bu başlanğıcı təkmil edərlər" [4, s.11].

M.Ə.Rəsulzadə 1904-cü ildə Stalinlə tanış olur. Bakının Balaxanı kəndində fabrik işçilərinə məxsus bir otaqda keçirilən görüş sonradan onların yaxın dostluq münasibətlərinə çevrilir. Sonralar Stalinin Bakıdakı Bayıl həbsxanasından qaçırılmasında M.Ə.Rəsulzadənin böyük rolu olub. Bu görüşdən sonra həmin ilin noyabr ayında RSDFP-nin Bakı komitəsi nəzdində müsəlman sosial-demokratlarının "Hümmət" qrupu yaradıldı. N.Nərimanov, M.Əzizbəyov və başqaları ilə yanaşı, M.Ə.Rəsulzadə də bu qrupun fəal üzvü olur və qrupun yeni nəşr olunan orqanı – "Hümmət" qəzetinin baş redaktoru vəzifəsini tutur. 1904-1905-ci illərdə bu qəzetin ancaq 5-6 nömrəsi işıq üzü görmüşdü. Rəsulzadənin bu qəzetdə çap olunmuş bir məqaləsi tapılmışdır. Onu da qeyd edək ki, həmin qəzet 1917-ci ildə N.Nərimanovun redaktorluğu ilə yenidən nəşrə başlamışdı.

M.Ə.Rəsulzadə 1908-ci ildə mart ayından etibarən Bakıda çıxan "Tərəqqi" qəzetinin müxbiri kimi tez-tez İrana ezam olunur, buradakı məşrutə hərəkatına aid yazılar yazır, gizli təşkilatın üzvü kimi həmin hərəkat ilə əlaqə saxlayırdı. Bu qəzetdə onun "İrandan məktublar" adı ilə silsilə yazıları çap olunmuşdur. Mütəfəkkir şəxsiyyət 1909-cu ildə may ayında Təbrizdə sərdari-milli adını almış, milli qəhrəman Səttarxanla görüşmüş, ondan geniş müsahibə almış, bu müsahibəni elə həmin ildə "Tərəqqi" qəzetində "Təbriz. Səttarxanla mülaqat" adı ilə nəşr etdirmişdir. Çar Rusiyası xəfiyyələri tərəfindən təqib edildiyindən o, 1909-1911-ci illərdə İranda yaşamış, 1909-cu ilin avqust ayından başlayaraq həmin dövrdə Tehranda baş redaktor kimi "İran-nov" qəzetini çıxarmışdır.

1909-cu ilin avqustun 24-də fəaliyyətə başlayan gündəlik və müstəqil "İran-nov" qəzeti 2-3 min nüsxə ilə İranın ən böyük qəzeti oldu. Qəzetin redaktoru Məhəmməd Əmin Rəsulzadə idi. O, bu qəzet vasitəsilə İran Demokratik Firqəsinin fikirlərini yayırdı, yaradıcı heyəti də Azərbaycan türklərindən ibarət idi. Qəzetdə Məhəmməd Əmin Rəsulzadənin çoxlu məqalələri, şeir və publisistik yazıları çap olunmuşdur. O, öz qələmi ilə İranda Avropa tipli jurnalistika sənətinin əsasını qoymuşdur. Məhəmməd Əmin Rəsulzadə Azərbaycanın rus işğalından qurtulması və İranın Rusiyanın təsirindən uzaqlaşması ilə bağlı sərt yazılar yazırdı. Qəzetdə Məhəmməd Əmin Rəsulzadə bəzən "Niş" təxəllüsü ilə çıxış edirdi.

"İran-nov" qəzeti nəşr olunduğu dövrdə İran tarixində ilk dəfə Avropa standartlarına uyğun olan və ölkədə ən çox oxunan qəzet sayılmışdır. Qəzet adətən ölkədə baş verən siyasi hadisələri işıqlandırır, çatışmazlıqları açıq göstərirdi. Buna görə də tez-tez nüfuzlu şəxslərin və digər qəzetlərin təzyiqinə məruz qalırdı. 1910-cu ilin yayında bağlansa da, elə həmin ilin payızında – oktyabrın 26-da artıq İran Demokrat Partiyasının orqanı kimi fəaliyyətini bərpa etdi.

M.Ə.Rəsulzadənin Qafqazda qurulan "Azərbaycan" adlı yeni dövlətlə bağlı İran mətbuatının saysız-hesabsız çıxışlarına cavab olaraq yazdığı məqalələr, xüsusilə 1919-cu ilin mayında nəşr edilmiş "Azərbaycan Cümhuriyyəti" tarixi oçerki Azərbaycan Cümhuriyyətinin tarixinə həsr olunmuş və elmi-publisistik şəkildə qələmə alınmış ilk əsərlər sayıla bilər.

M.Ə.Rəsulzadənin sonrakı ictimai-siyasi, publisistik fəaliyyətində "Açıq söz" qəzetinin böyük əhəmiyyəti olub. "Açıq söz" qəzeti 1915-ci ilin oktyabr ayının 2-də Bakıda nəşrə başlayıb. Bu qəzet

yalnız mətbuat tariximizdə deyil, eyni zamanda xalqımızın azadlıq mübarizəsi tarixində əhəmiyyətli rol oynayıb. M.Ə.Rəsulzadə bir lider olaraq xalqın düşdüyü ağır vəziyyətdən çıxmaq bacarığını məhz bu qəzetdə nəşr olunan yazılarında ortaya qoyub.

Qəzetin adının altında yazılıb: "Siyasi-ictimai və ədəbi Türk qəzetəsi". Qəzetin ilk sayının baş məqaləsi "Tutacağımız yol" adlanırdı. Müəllifi M.Ə.Rəsulzadə olan bu yazıda mühüm bir problem açıqlanırdı: "Dəhşətlərinə şahid olduğumuz bu yol bir həqiqəti-əsrimizin milliyyət əsri olduğunu isbat etdi. "Dünyanın xəritəsi hərbdə dəyişəcək" - deyə heyrətlə qarışıq bir cümlə indi bir çox ağızlardan eşidilməkdədir" [2, s.6].

M.Ə.Rəsulzadənin baş redaktor olduğu qəzetin ətrafına milli ruhlu ziyalı və gənclər toplaşmışdı. Mirzə Bala Məmmədzadə, Hüseyn Cavid, Əhməd Cavad, Cəfər Cabbarlı kimi ziyalılar bu qəzetin fəal əməkdaşları idi. Qəzet 1918-ci ilədək nəşr olundu. 1917-ci il Rusiyadakı fevral Burjua inqilabının baş verməsi ilə Azərbaycanda da milli dirçəliş hərəkatının yeni dalğası başladı. 1917-ci il aprelin 15-dən 20-dək Bakıda keçirilən Qafqaz Müsəlmanlarının Qurultayında M.Ə.Rəsulzadə tərəfindən irəli sürülən ərazi muxtariyyəti və millətlərin istiqlalı ideyasının məntiqi sonluğu 1918-ci ilin mayın 27-də Azərbaycan Milli Şurasının yaradılması, mayın 28-də isə Azərbaycan istiqlalının bütün dünyaya elan edilməsi olur. M.Ə.Rəsulzadə 28 may istiqlalını mühüm hadisə adlandıraraq yazırdı: "O tarixdən əvvəl bir millət olaraq varlığını isbat edən Azərbaycan xalqı bu tarixdən etibarən milli olaraq dövlət qurmuş və bu dövlətin istiqlalı uğrunda bütün mövcudiyyəti ilə meydana atılıb" [3, s.7].

M.Ə.Rəsulzadə qəzetə, mətbuata böyük dəyər verirdi. Bu barədə o "Bizim məramımız" məqaləsində yazırdı: "...qəzet millətin danışan dilidir. Bir millətin ki qəzeti yoxdur, elə bil ki o millətin dili yoxdur. Vətən dərdlərinə mətbuat dərman olur. İstibdadın yurd-yuvasını qəzetlər dağıdıb və dağıdır. Qəzet həmişəlik qaravuldadır (gözətçilikdədir), qoymur ki, ölkənin inkişaf yolu bağlansın [5]

Rəsulzadə Azərbaycanın mətbuatı tarixində siyasi publisistikanın ən görkəmli nümayəndələrindən biridir. Tədqiqatlar göstərir ki, onun 1903-1920-ci illərdə təkcə Azərbaycanın dövri mətbuatında 1200-dən artıq müxtəlif janrda yazıları dərc olunmuşdur. O, ədəbi-publisistik fəaliyyətini siyasi mühacirət illərində də davam etdirmiş, Azərbaycan xalqının tarixi və ədəbiyyatı ilə bağlı çoxsaylı məqalələr dərc etdirmişdir.

## Nəticə

*"Bir kərə yüksələn bayraq bir daha enməz" aforizminin müəllifi Məhəmməd Əmin Rəsulzadə XX əsrin ilk onilliklərində böhranlı geosiyasi şəraitdə Azərbaycanda müstəqillik idealının gerçəkləşdirilməsi və milli dövlət quruluşunun dirçəldilməsi yolunda böyük xidmətlər göstərmiş şəxsiyyətlərdəndir. Məhəmməd Əmin Rəsulzadə Azərbaycanın dövlət-millət kimi formalaşmasında misilsiz xidmətləri olan azərbaycançılıq ideoloqu idi. Onun istiqlal məfkurəsi öz mənbəyini doğma xalqının çoxəsrlik yaddaşında kök salmış milli azadlıq düşüncəsindən alırdı. Tarixi faktlar da Məhəmməd Əmin Rəsulzadənin Azərbaycan mətbuatının formalaşmasında əvəzsiz xidmətləri olduğunu sübut edir. Məhəmməd Əmin Rəsulzadənin dövrün salnaməsinə çevrilən parlaq publisistik, siyasi, ədəbi-tənqidi və elmi irsi Azərbaycanın ictimai fikir tarixində hər zaman xüsusi yer tutacaqdır.*

## Ədəbiyyat siyahısı:

1. I Beynəlxalq Rəsulzadə Qiraətləri. M.Ə.Rəsulzadə irsi Demokratiya, Müstəqillik və Dövlətçilik dəyərləri sistemində. - Bakı, 2022. – 672 s.
2. Şəymən. Rəsulzadə həm də jurnalist, baş redaktor olub. - Şərq. - 2017. - 1 fevral.- S.6
3. Şəymən. Milli mətbuatın azadlıq fədaisi. - Şərq. - 2016. - 26 yanvar. - S.7.
4. Tahirqızı Ü. AXC dövründə milli mətbuat. - Xalq Cəbhəsi. - 2014. - 16 aprel. - S.11.
5. https://nuhcixan.az/news/cemiyyet/100132-mehemmed-emin-resulzade-ve-metbuat

**Lala Huseynova**

## Muhammad Amin Rasulzadeh and the national press

### *Summary*

Most of our intellectuals who lived and created at the beginning of the 20th century wrote history by protecting the cultural wealth and moral values of our people with both their political and literary activities. Muhammad Amin Rasulzadeh, the founder of the Republic of Azerbaijan, fulfilled this duty with his literary-intellectual outlook, cultural-political knowledge.

The brighter the personality of Muhammad Amin Rasulzade appears in the glorious pages of the history of Azerbaijan's independence, the more important is the services rendered by this great man in the development of our national press. M.A. Rasulzade was not only a political figure, a Mujahideen who showed the path of progress of his country and nation and walked tirelessly on this path. He was also an intellectual, writer, journalist and editor in the best sense of the word, who directed the Azerbaijani society in the right direction with his socio-political articles. During his political activity, he also fought for freedom of speech and press. M.A. Rasulzadeh, who was constantly persecuted, expressed his serious objection to the censorship of the press during the Tsarist Russia. The article reflects the services rendered by this great historical figure in the development of our national-democratic press, the newspapers he edited in different years, and the public political views he put forward as a literary critic-publicist.

***Keywords:*** *Azerbaijan Democratic Republic, Mammad Amin Rasulzadeh, national press, independence, freedom of the press, İranian press, "Shargi- Rus", "Achıg soz", "Iran-nov"*

*Filologiya üzrə fəlsəfə doktoru* ***Samirə Əliyeva***
*tərəfindən çapa tövsiyə olunmuşdur.*